# AZƏRBAYCAN RESPUBLİKASI
# İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN

## İDARƏ HEYƏTİNİN QƏRARI

№ 05

**Bakı şəhəri** "10" fevral 2022

**"B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiya"nın yeni tərkibinin təsdiq edilməsi haqqında**

B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkilinin təmin edilməsi, eyni zamanda Komissiyanın yeni tərkibdə fəaliyyət göstərən üzvlərinin təsdiq edilməsi məqsədilə "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanın 3.2-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiyanın tərkibi aşağıdakı kimi müəyyən edilsin:

**Komissiyanın sədri**

Fərrux Sədirov - Kliniki Tibbi Mərkəz publik hüquqi şəxsin, İnfeksion xəstəliklər şöbəsinin müdiri, həkim infeksionist;

**Komissiyanın üzvləri:**

Süleyman Şamilov - Mərkəzi Neftçilər Xəstəxanasının həkim infeksionisti;

Turan İbrahimova - "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin İnfeksion nəzarətin təşkili şöbəsinin koordinatoru

| | | |
|---|---|---|
| Gülnar Axundzadə | - | "Kliniki Tibbi Mərkəz" publik hüquqi şəxsin infeksion xəstəliklər üzrə mütəxəssisi; |
| Fidan Mehdiyeva | - | Professor Ə.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanasının infeksion xəstəliklər üzrə mütəxəssisi; |
| Aişə Kərimova | - | "Kliniki Tibbi Mərkəz" publik hüquqi şəxsin infeksion xəstəliklər üzrə mütəxəssisi; |
| Nigar Babayeva | - | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Vətəndaş müraciətləri şöbəsinin məsləhətçisi. |

2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin "B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə Komissiya"nın yaradılması haqqında 18.09.2020-ci il tarixli 24 nömrəli Qərarının 3-cü hissəsi ləğv edilsin.

3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin və filial rəhbərlərinin, Komissiyanın üzvlərinin, o cümlədən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin və onun tabeliyindəki tibb müəssisələrinin rəhbərlərinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamenti (E.Mikayılov) tərəfindən təmin edilsin.

4. Marketinq və ictimaiyyətlə əlaqələr departamenti (A.Əhmədova) bu Qərarın Agentliyin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

5. Bu Qərarın icrasına ümumi nəzarət İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

**İdarə Heyətinin sədri** **Zaur Əliyev**